# Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası keçirilib

**Sentyabrın 26-da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən verilən məlumata görə, deputatlar öncə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər.**



Ali Məclisin ilk iclasını ən qocaman deputat kimi açan Ramiz Məmmədov deputatları təbrik edib və yeddinci çağırış Ali Məclisə seçilmiş deputatların siyahısını oxuyub, yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclasını açıq elan edib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hesablayıcı komissiyası yaradıldıqdan sonra Ali Məclis sədrinin seçilməsi məsələsinə baxılıb. Ali Məclisin sədri vəzifəsinə təklif olunan namizəd dəstəklənmədiyi üçün Ali Məclisin sədr müavinlərinin seçilməsi məsələsinin müzakirəsinə başlanılıb.

Ali Məclis sədrinin birinci müavini vəzifəsinə 41 saylı Ordubad şəhər seçki dairəsindən deputat seçilmiş Məmmədov Bəxtiyar İbrahim oğlunun namizədliyi irəli sürülüb. Təklif səsə qoyularaq qəbul edilib, Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini seçilib.

Göstərilən etimada görə minnətdarlıq edən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov deyib ki, Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkəmizdə uğurla davam etdirilməsi sosial-iqtisadi islahatların əhatə dairəsini genişləndirib, müstəqilliyimiz və dövlətçiliyimiz, xalqımızın milli birliyi və mövcud ictimai-siyasi sabitlik daha da möhkəmlənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz regionda və dünyada söz sahibi olan dövlətə çevrilib. Demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolundakı fəaliyyət, hakimiyyətin bütün qollarında tətbiq edilən yeniliklər, idarəetmənin təkmilləşdirilməsi, ictimai həyatın bütün sahələrində qanunun aliliyinə riayət olunması və qanunvericilik bazasının zənginləşdirilməsi ilə Azərbaycanda təkmil siyasi sistem formalaşıb. Bəxtiyar Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qanunvericilik hakimiyyətinin gücləndirilməsi ilə bağlı müəyyənləşdirdiyi vəzifələrin VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin əsas fəaliyyət istiqaməti olacağına, Ali Məclisin muxtar respublikanın inkişafı istiqamətində səlahiyyətləri daxilində səmərəli fəaliyyət göstərəcəyinə əminliyini ifadə edib.

İclası davam etdirən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov növbəti məsələnin Ali Məclis sədrinin müavininin seçilməsi olduğunu bildirib. Bu vəzifəyə 42 saylı Aşağı Əndəmic seçki dairəsindən deputat seçilmiş Abdullayev Arzu Kamal oğlunun namizədliyi irəli sürülüb.

Səsvermə nəticəsində Arzu Abdullayev Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilib.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.-27 sentyabr (№ 211).- S.14.